**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№386/2** **11 mart 2026-cı il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının "31 dekabr 2025-ci il tarixinə Maliyyə Hesabatları və müstəqil auditorun Hesabatı" barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı il üzrə iş planının 12.6-cı "Auditorlar Palatasının 2025-ci üzrə maliyyə hesabatlarının hazırlanması və onun auditinin təşkili" bəndinin icrasını təmin etmək məqsədilə Maliyyə və texniki təminat idarəsi (Q.Əhmədov) tərəfindən hazırlanmış Auditorlar Palatasının 2025-ci il üzrə Maliyyə Hesabatlarının "BKR Consulting" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən aparılmış auditinin nəticələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının "31 dekabr 2025-ci il tarixinə Maliyyə Hesabatları və müstəqil auditorun Hesabatı" bəyənilsin (əlavə olunur).

2. "BKR Consulting" Məhdud Məsuliyyətli Cəmiyyəti (E.Əliyev) tərəfindən Auditorlar Palatasının 2025-ci il üzrə hazırlanmış Maliyyə Hesabatlarının nəticəsi üzrə göstərilmiş tövsiyələrin reallaşdırılması məqsədilə Maliyyə və texniki təminat idarəsinə (Q.Əhmədov) tapşırılsın ki:

2.1. Azərbaycan Respublikası Auditorlar Palatasında aparılan maliyyə əməliyyatlarına səmərəli və keyfiyyətli nəzarət sisteminin təşkili və onun təkmilləşdirilməsi təmin edilsin;

2.2. Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olaraq Auditorlar Palatasının aktivlərinin mühafizə edilməsi təşkil edilsin;

2.3. Kreditor və debitorlarla üzləşmə aparılması təmin edilsin;

2.4. Maliyyə vəsaitlərinin təyinatı üzrə xərclənməsinə, xərclərin müvafiq sənədlərlə təsdiq edilməsinə, maliyyə dayanıqlılığının təmin edilməsinə, gələcək maliyyə risklərinin aradan qaldırılmasına ciddi nəzarət edilsin.

3. Bu qərarın və Azərbaycan Respublikası Auditorlar Palatasının "31 dekabr 2025-ci il tarixinə Maliyyə Hesabatları və müstəqil auditorun Hesabatı"nın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**